

# MƏNİ AXTARIB SƏNİ TAPACAQLAR

MUSTAFA ÇƏMƏNLİ

**Mən Əməkdar mədəniyyət işçisi, tarzən Kamil Əhmədovun qapısını ilk dəfə onun həyatından yazmaq istəyi ilə yox, muğamla bağlı söhbətlərini eşitmək məqsədilə döymüşəm. İlk görüşümüzün ili, günü yadımda qalmasa da, Kamil müəllimin musiqi muzeyi təsiri bağışlayan o kiçik emalatxanası, tarıyla müşayiət etdiyi o nəğmə dolu söhbətləri yaddaşımda əbədiləşib. Hərdən onun söhbətlərinə qəfəsdə saxladığı bülbüllərin cəh-cəhi də qovuşardı və bu anlar mən bahar ovqatını yaşayardım. Mən Kamil müəllimin musiqili söhbətlərinin aşiqiydim, sözlü-söhbətli tar çalmağını dinləmək mənim üçün ən unudulmaz anlar idi. O çalıb-danışdıqca qadir bir ozan-tarzən görürdüm. Kamil müəllim "Şur" adlı, "Rast", "Segah" adlı muğam-dastan danışan geniş fantaziyalı bir sənətkar idi.**

Kamil Əhmədova düz iyirmi il Seyid Şuşinski ilə çiyin-çiyinə işləmək qismət olmuşdu. Və bu 20 il ona çox şey vermişdi. Bu illər ərzində Kamil Əhmədov Yaxın Şərq və Azərbaycan muğamlarının incəliklərinə qədər bələd olan Seyid Şuşinskidən muğam dünyasının sirrini, sehrini öyrənmişdi.

Kamil müəllimlə hər görüşümdə onun Seyid Şuşinskiyə sonsuz sənətkar sevgisi, ehtiramı məni heyrətləndirirdi. Kamil Əhmədov söz düşəndə deyirdi: "Üzeyir bəyin, Seyidin çörəyidir, bu gün də yeyirəm. 20 il mən Seyid Şuşinskiylə birgə işləmişəm. Ondan çox şey öyrənmişəm. O, sözün əsl mənasında, böyük xanəndəydi. Seyid dünyadan köçən günün səhəri o sinifdən çıxanam. Seyiddən sonra ayrı bir muğamat müəlliminin yanında müşayiətçi olmaq mənə çətin olardı. Seyidi xatırlamadığım gün yoxdu. Elə bir il yadıma gəlmir ki, Novruz bayramında Üzeyir bəylə Seyid Şuşinskinin qəbri üstə səməni qoyub şam yandırmayım".

Bu muğam bilicisinin sözünün əvvəli də, sonu da Seyid Şuşinskidən idi.

Qarabağ uğrunda erməni daşnaklarıyla savaş başlayanda musiqinin əsgərlərə təsiri mövzusunda bir şey yazmaq istədim. Məni xalq musiqisindəki müharibə ovqatı maraqlandırırdı. Fikrimi bölüşdürmək üçün 30 aprel 1992-ci ildə Kamil müəllimgilə getdim. Söhbətə başlamazdan əvvəl Kamil müəllim divardan asılmış bir şəkli mənə göstərib: - Bunlardan heç biri həyatda yoxdur, - dedi. O hansı şəkil idi, indi deyə bilmərəm, amma gündəliyimdə yazmışam ki, "Kamil müəllimin xatirəsi ilə birgə bu şəkli çap etdirmək olar". İndi çox təəssüflənirəm ki, bunu etməmişəm.

O zaman Kamil müəllimə belə bir sualla müraciət etmişdim:

- Bizim muğamların hansında müharibə ovqatı var?

Kamil müəllim adəti üzrə tarını götürüb köklədi və dedi:

- "Çahargah"da. Allah Seyid Şuşinskiyə rəhmət eləsin. Tələbələrə "Çahargah" muğamını keçirdik. Ağa da adəti üzrə fil sümüyündən düzəldilmiş əsasına söykənib gözlərini yummuşdu, kənardan baxana elə gələrdi ki, yatıb. Ancaq zahirən belə idi. Tələbə "Çahargah"ın "Müxalif" şöbəsini oxumağa başlayanda mən ancaq dəm tutdum. Bu vaxt Ağa sanki yuxudan oyandı:

- Niyə çalmırsan? - dedi.

- Ağa, xanəndəyə mane olmaq istəmirəm, - dedim.

Dedi ki, mane ol, axı müharibədi, qoşunlar üz-üzədi... Daha bir söz demədim. Dərs bitdi, tələbələr gedəndən sonra dedim, Ağa, muğamda bu müharibə söhbəti nədi, bu günə kimi sizdən bu barədə bir söz eşitməmişəm.

Gülümsəyib dedi ki, yadıma düşsəydi deyərdim. Ağa başladı "Çahargah" muğamını şöbə-şöbə şərh etməyə.

Kamil müəllim o gün "Çahargah" muğamını öz çalğısının müşayiəti ilə bu gündə çalınıb-oxunan, eyni zamanda proqrama salınmayan şöbə və guşələrdəki gizli mətləbləri şərh etməyə. Mən bu söhbətə əsaslanaraq "Xalq musiqisində müharibə ovqatı" adlı məqalə yazıb "Azərbaycan" qəzetində çap etdirdim (16 yanvar 1993). Aradan illər keçəndən sonra "Çahargah" adlı hekayə yazıb Seyid Şuşinskinin əziz xatirəsinə ithaf etdim.

Kamil müəllim o qədər gözəl xatirələr, musiqi ilə bağlı söhbətlər edərdi ki, yaddaşıma bir cümlə köçürməmiş, ondan da dəyərli bir fikir, əhvalat, epizod eşidirdim. Əlbəttə, bu söhbətlərin baş qəhrəmanı həmişə unudulmaz Seyid Şuşinski olardı. Kamil Əhmədov onun dərs keçmə üsulundan, toylara getmələrindən, Seyidin oxuma tərzindən danışmaqdan usanmazdı. Bir dəfə isə Kamil müəllim özü ilə bağlı bir əhvalat danışdı.

Kamil müəllimin toyu olacaqmış, Seyid Şuşinski bu münasibətlə ona hədiyyə almaq istəyirmiş. Bir gün Kamil müəllimə deyir ki, uşaqlardan da götür, bir dostum var, məndən xahiş eləyib, gedək ona bir dənə çilçıraq alaq. Deyilən vaxtda gedirlər bir dükana. Seyid Kamilə deyir ki, sənin zövqün yaxşıdı, qiymətli bir çilçıraq seç, alaq. Ağlına başqa bir fikir gəlməyən Kamil Əhmədov bahalı bir çilçıraq seçir. Seyid çilçırağın pulunu verib deyir ki, Kamil, sən mənə bir yaxşılıq da elə, başqa yerdə vacib işim var, ora getməliyəm, xahiş edirəm bu çilçırağı evinizə apar, sonra adam göndərərəm gəlib sizdən götürər. Kamil Əhmədov da razılaşır. Seyid toy günü Kamil Əhmədova deyir ki, bəs o çilçıraq sənə hədiyyədir, toyun mübarək olsun!



Kamil müəllim deyir, Ağa, sən mənim başıma nə oyun açmısan, özüm-özümə ən bahalı çilçıraq almışam. Seyid ona cavab verir ki, Kamil, mən sənin xasiyyətini bildiyimdən belə elədim. Qoy bu çilçıraq məndən sənə yadigar qalsın.

**Kamil müəllim Seyid Şuşinskinin bir deyimini tez-tez xatırlayırdı. Seyid Şuşinski deyirmiş ki, Kamil, gün gələcək məni axtarıb səni tapacaqlar. Bəli, həqiqətən də Seyidlə ünsiyyətdə olmayan bizlər onun haqqında Kamil Əhmədov kimi qədirşünas tarzəndən soruşardıq. Kamil müəllimin çalğısına dönə-dönə qulaq asmışam, hər dəfə də onun çalğısında Seyid Şuşinskinin muğam nəfəslərini aydınca hiss etmişəm.**



Ədalət 2019.- 6 aprel.- S.9.